Ədəbiyyat qəzeti



5 dekabr / 2020

Bakı 2016

*Niyə bilmirəm (əslində bilirəm), məni bu cəmiyyətdə çoxları ipinin üstünə odun yığılması mümkün olmayan adam kimi tanıyır. Bu sözü mənə o qədər deyiblər, artıq özüm də o fikirdəyəm ki, doğrudan da, mənim ipimin üstünə odun yığmaq olmaz. Elə bil boynuma qoyublar və mən də məcbur olub razılaşmışam. Amma hərdən də uzun illərdən bəri Kamal Abdullaya olan münasibətimə, onun bir yazıçı kimi qüdrətinə, şəxsiyyət kimi isə ucalığına baxıb fikirləşirəm ki, mən bütün bu illər ərzində Kamal müəllim haqqında fikrimi dəyişməmişəmsə, deməк, ipimin üstünə odun yığmaq olar. Təbii ki, burada mənim sadiq, sözünün üstündə kişi kimi duran bir adam olmağımın səbəbi mən özüm yox, Kamal Abdullanın öz durduğu yerə, ictimai-siyasi mövqeyə, ədəbi-bədii, fəlsəfi dünyagörüşə sadiqliyidir. O öz dayandığı yerə sadiqdir deyə, mənim də onun haqqında fikirlərim bu qədər uzunömürlüdür. Kamal müəllimə bir çox pəncərələrdən baxmaq olar və ola bilər ki, hansısa pəncərədən baxıb onu bəyənməyəsən, amma mənim baxdığım bütün pəncərələrdən Kamal Abdulla işıq kimi görünür. Dost pəncərəsindən də, ziyalı, aydın pəncərəsindən də, rektor, vətəndaş pəncərəsindən də və təbii ki, mənim qarşısından heç vaxt çəkilməyəcəyim bir pəncərə var və ordan Kamal müəllim daha möhtəşəm görünür. O da yazıçı pəncərəsidir. Məncə, zaman Kamal Abdullanın bütün pəncərələrinin yerinə divar hörsə də, onun yazıçı kimi qarşısını ala bilməyəcək və biz onun gənc dostları kimi nə vaxtsa öz nəvələrimizə danışacağıq ki, biz Kamal Abdulla ilə dost olmuşuq, onunla çörək kəsmişik, o bizi çox istəyirdi... Və arzu edirəm, Kamal müəllim dayandığı yerə necə sadiqdirsə, həyat, ömür də ona o qədər sadiq olsun, xətrinə dəyməsin.*

***Kəramət BÖYÜKÇÖL** (yazıçı)*